# Böyük əzm və tükənməz enerji ilə



2017-ci il yanvar ayının birində böyük iqtisadçı alim və pedaqoq, professor Nazim Hidayət oğlu Əhmədovun anadan olmasının 70, elmi-pedaqoji fəaliyyətinin 43 ili tamam olur.

Nazim Hidayət oğlu Əhmədov 1 yanvar 1947-ci ildə Azərbaycanın dilbər guşələrindən biri olan Ordubad rayonunun Vənənd kəndində dünyaya göz açıb. 1953-cü ildə kənd orta məktəbinin birinci sinfinə daxil olmuş və 1964-cü ildə oranı yaxşı və əla qiymətlərlə bitirmişdir. Elə həmin il Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) İqtisad fakültəsinə daxil olmuşdur.

1959-cu ildə bağlanan D.Bünyadzadə adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun 1966-cı ildə yenidən açılması ilə əlaqədar olaraq İqtisad fakültəsi Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutuna köçürüldü. Nazim müəllim 1968-ci ildə həmin institutun Maliyyə-statistika fakültəsini müvəffəqiyyətlə bitirmişdir.

Məlumdur ki, keçən əsrin 60-cı illərində ölkəmizdə, o cümlədən Naxçıvan MR-də ali təhsilli kadrlara çox böyük ehtiyac var idi. Kadr çatışmazlığı bütün sahələrdə olduğu kimi, bank sistemində də özünü göstərirdi. Misal üçün keçən əsrin 60-cı illərinin sonlarında SSRİ Dövlət Bankının Azərbaycan Kontorasının Naxçıvan idarəsində çalışan 55 nəfərdən cəmi 3 nəfəri ali təhsilli idi. Odur ki, Nazim Əhmədov AMEA-nın İqtisadiyyat İnstitutuna dəvət almağına baxmayaraq öz xahişi ilə SSRİ Dövlət Bankı Azərbaycan Kontorasının Naxçıvan idarəsinə təyinat almışdır. Beş ay orada işlədikdən sonra hərbi xidmətə çağırılmışdır. Bir il xidməti borcunu yerinə yetirdikdən sonra yenidən banka qayıtmış və altı il bank sistemində iqtisadçı və baş iqtisadçı vəzifələrində işləmişdir. Bundan sonra elmə olan marağı onu Naxçıvan Dövlət Pedaqoji İnstitutuna (indiki Naxçıvan Dövlət Universitetinə) gətirdi.

Keçən əsrin 70-ci illərində Naxçıvanda fəaliyyət göstərən və yeganə ali məktəb olan Naxçıvan Dövlət Pedaqoji İnstitutunda elmi dərəcəli kadrlar çatışmadığından rektorluq 1977-ci ildə onu indiki Bakı Dövlət Universitetinə göndərmiş və o, müvəffəqiyyətlə imtahan verərək "İqtisadi nəzəriyyə" ixtisası üzrə məqsədli aspiranturaya daxil olmuşdur.

Elmi rəhbər isə mərhum professor, iqtisad elmləri doktoru Mirağa Musayev təyin edilmişdir. Azərbaycan SSR materialları əsasında "Müasir şəraitdə əhalinin tədiyyə qabiliyyətli tələbi" adlı dissertasiya mövzusu təsdiq edilmişdir.

Dissertasiya işini hazırlamaq üçün Nazim müəllim demək olar ki, bütün aspirantlıq məzuniyyətlərini Moskvada kitabxanalarda keçirirdi. Onun əməksevərliyi və çətinlikdən qorxmaması nəhayət öz bəhrəsini verdi. Keçən əsrin 80-ci illərində bu ixtisas üzrə Azərbaycanda müdafiə şurasının olmaması işi müəyyən qədər gecikdirdi. Bakı Dövlət Universitetində müdafiə şurası yaradıldıqdan sonra AMEA-nın müxbir üzvü, Siyasi iqtisad kafedrasının müdiri, mərhum professor, iqtisad elmləri doktoru T.Vəliyevin sədrliyi ilə Nazim müəllim yazdığı dissertasiyanı müvəffəqiyyətlə müdafiə etmiş və 1991-ci ildə iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

Bir məsələni xüsusi olaraq qeyd etmək istərdik. Müdafiə zamanı opponent olmuş iqtisad elmləri doktoru, professor Səttar Səfərovun, iqtisad elmləri doktoru Qabil Manafovun, müdafiə şurasının üzvlərindən AMEA-nın müxbir üzvü, mərhum professor, iqtisad elmləri doktoru Ağasəlim Ələsgərovun, AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Şahbaz Muradovun çıxışlarında və keçmiş SSRİ-nin müxtəlif şəhərlərindən gələn rəylərdə səslənən müsbət fikirlər son nəticədə dissertasiya işinin keçmiş SSRİ Nazirlər Soveti yanında təşkil olunmuş Ali Attestasiya Komissiyası tərəfindən 29 günə təsdiq edilməsinə və Moskvadan xoş xəbər gəlməsinə səbəb olmuşdur.

Nazim müəllimin doktorluq dissertasiyası "Azərbaycanda keçid iqtisadiyyatı şəraitində istehlak bazarının formalaşması problemləri" adlanırdı. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Mərkəzində - mərkəzin direktoru iqtisad elmləri doktoru, professor Rasim Həsənovun sədrliyi ilə keçən iclasda mövzu təsdiq olunmuşdur. Nazim Əhmədov dissertasiya işini müvəffəqiyyətlə başa çatdırdı və 2006-cı ildə müdafiə edərək çox qısa bir vaxt ərzində iqtisad elmləri doktoru alimlik dərəcəsi aldı. Doktorluq dissertasiyasında verilən təkliflər isə Naxçıvan MR İqtisadi İnkişaf Nazirliyi tərəfindən müzakirə edilərək tətbiq üçün qəbul edildi. 2011-ci ildə N.Əhmədova professor elmi adı verilmişdir.

Nazim müəllimin elmi-pedaqoji fəaliyyəti çox zəngindir. O, ilk dəfə ali məktəbə gələndə dispetçer vəzifəsindən başlayaraq sonralar baş laborant, xüsusi şöbənin rəisi, müəllim, baş müəllim, dosent və professor vəzifələrinə kimi yüksəlmiş, muxtar respublikada fəaliyyət göstərən ali məktəblərdə kafedra müdiri və dekan vəzifələrində çalışmışdır.

Nazim müəllim Naxçıvan Dövlət Universitetində 1994-2004-cü illərdə kafedra müdiri olduğu dövrdə, xüsusilə 90-cı illərdə muxtar respublikada elmi dərəcəsi olan iqtisadçı kadrlar qıtlığı yaranmışdı. Bu məsələ kafedra müdiri kimi Nazim müəllimi də düşündürməyə bilməzdi. Bu baxımdan o, tez-tez Bakıya gedir, iqtisadçı alimləri Naxçıvana dəvət edir və kafedranı bu böhrandan çıxarmağa çalışırdı. Dəvət olunan iqtisadçılar içərisində iqtisad elmləri doktorları, professorlar Sifariz Səbzəliyev, Rasim Həsənov, mərhum Sofiq Hüseynov, iqtisad elmləri namizədi, dosent Əsəd Quliyev və başqaları universitetə gəlib həm dərs deyir, həm də respublika və beynəlxalq miqyaslı konfransları təşkil edərək çıxışlar edirdilər. Bütün bunlar isə Naxçıvanda iqtisadçı kadrların yetişməsinə öz müsbət təsirini göstərmişdir.

Nazim müəllim işlədiyi müddətdə geniş elmi fəaliyyətlə məşğul olmuşdur. Əsərlərinin siyahısını vərəqlədikcə məlum olur ki, indiyə qədər 250-dən çox əsər çap etdirmişdir ki, bunlardan 30-a yaxını monoqrafiya, kitab və dərs vəsaitləridir. O, çoxsaylı dərs proqramlarının və tədris-metodiki vəsaitlərin müəllifidir.

Onun əsərlərinin bir neçəsi ABŞ, Rusiya, İran, Türkiyə, Moldova, Ukrayna, Çexoslovakiya və digər ölkələrdə nəşr olunmuşdur. O, bir çox beynəlxalq konfrans və simpoziumlarda məruzə ilə çıxış etmişdir.

Nazim müəllim bu gün Naxçıvanda yaşayır və burada yazıb-yaradır.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin xüsusi fərmanı ilə imzaladığı regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları (2004-2008, 2009-2013-cü illər) Naxçıvan Muxtar Respublikasında da çox uğurla yerinə yetirilmiş və 2014-2018-ci illəri əhatə edən üçüncü proqram da uğurla yerinə yetirilməkdədir. Məhz bu uğurları görmək və tədqiqata cəlb etmək Nazim müəllimi həmişə düşündürmüşdür. Elə bu səbəbdən onun respublikanın bir çox görkəmli alimləri tərəfindən redaktə olunmuş və rəylər verilmiş 4 monoqrafik kitabları (ulu öndər Heydər Əliyevin 85 illiyinə həsr edilmiş "Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf" Bakı-Sabah-2008, 452 səh., ulu öndər Heydər Əliyevin 87 illiyinə həsr edilmiş 148 səhifəlik "Heydər Əliyevin inkişaf modeli və Naxçıvanda dinamik inkişaf" Bakı-Elm və təhsil, 2010-148 səh.; Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 30 ildə, Naxçıvan - Əcəmi, 2015-272 səh.) Naxçıvan Muxtar Respublikasının müstəqillik illərində qazandığı uğurların təhlili və təbliğinə həsr edilmişdir. Onun "Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə" kitabı Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının 90 illik yübileyinə həsr olunmuş tədbirlər Planı"na əsasən yazılmış, Naxçıvan iqtisadiyyatının ayrı-ayrı sahələrinin inkişafına və bu sahədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin rəhbərliyi altında görülən işlərə həsr edilmişdir.

Nazim müəllimin Naxçıvan iqtisadiyyatına həsr olunan və yuxarıda adı çəkilən monoqrafiyalarından ikisi Ali Məclis tərəfindən bəyənilmiş və onların təqdimatının keçirilməsinə dair göstəriş verilmişdir. Təqdimat zamanı Ali Məclisdən, Nazirlər Kabinetindən və İqtisadi İnkişaf Nazirliyindən də nümayəndələr iştirak etmiş və öz fikirlərini müəlliflə bölüşmüşlər.

Bütün yuxarıda deyilənləri ümumiləşdirərək belə bir fikri qeyd etmək istərdik ki, XX əsrdə və XXI əsrin keçən illərində Azərbaycanın bir çox görkəmli alimləri öz yaradıcılığında Naxçıvan MR iqtisadiyyatının inkişafının tədqiqinə xeyli yer vermiş və bu sahələrdə sanballı əsərlər yazmışlar. Bu alimlər içərisində professor Nazim Əhmədov özünəməxsus görkəmli bir yer tutur. Bu əsərlərdə Nazim müəllim Naxçıvan iqtisadiyyatının Azərbaycanda və xarici ölkələrdə tanınması üçün ən çox səy göstərən azsaylı alimlərdən biri kimi tanınmışdır.

Nazim müəllimin bir çox məqalələri dövri mətbuatda, o cümlədən "Yeni Ordubad", "Şərq Qapısı", "Respublika" və "Xalq qəzeti"ndə çap olunmuşdur. Nazim müəllimin "Naxçıvan" və "Naxçıvanın səsi" radiosundakı, habelə "Naxçıvan" televiziyasındakı çıxışları da dinləyicilər tərəfindən böyük maraqla qarşılanmışdır.

Gənc iqtisadçı alimlərin hazırlanmasında fəal iştirak edən N.Əhmədov Naxçıvan Müəllimlər İnstitutunun Elmi Şurasının və AMEA-nın Naxçıvan Bölməsində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının üzvüdür və eyni zamanda həmin şurada fəaliyyət göstərən seminarın sədridir.

N.Əhmədovun rəhbərliyi altında 3 nəfər iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmiş, 1 nəfərin dissertasiya işi müdafiəyə buraxılmışdır. Hazırda 2 nəfər elmlər doktoru elmi dərəcəsi iddiasında olan dissertantın elmi məsləhətçisi, 8 nəfər fəlsəfə doktoru elmi dərəcəsi iddiasında olan doktorant və dissertantların elmi rəhbəridir. O, həmçinin bir çox magistr dissertasiya işlərinin elmi rəhbəri olmuşdur.

Nazim müəllim eyni zamanda Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyində hazırlanan bir çox layihələrdə iştirak etmiş, xeyli sayda namizədlik və doktorluq dissertasiyalarında rəsmi opponent və rəyçi olmuş, habelə çap olunmuş bir sıra monoqrafiya, dərslik və dərs vəsaitlərinin, tədris proqramlarının hazırlanıb nəşr edilməsində elmi redaktor və rəyçi kimi iştirak etmişdir.

Nazim Əhmədov müstəqil Azərbaycanın bazar iqtisadiyyatı sisteminə transformasiya olunması və yeni mülkiyyət münasibətlərinin formalaşması ilə əlaqədar olaraq tez-tez bu sistemin aktual problemlərinə həsr olunmuş konfranslar və "dəyirmi masa"lar keçirilməsinin təşkilatçılarından biri olmuşdur. Təkcə belə bir faktı göstərmək kifayətdir ki, onun rəhbərliyilə 2002-ci ildə Naxçıvan Özəl Universitetində keçirilən "dəyirmi masa"da ABŞ-ın Perdu Universitetinin professorları Camaləddin Hüseyinin və H.Lipinskinin, habelə muxtar respublikada sahibkarlıq fəaliyyəti göstərən iş adamlarının iştirakı ilə kiçik və orta biznesin inkişafı ilə bağlı məsələlər müzakirə olunaraq təkliflər verilmişdir.

Nazim müəllim Naxçıvan Dövlət Universitetinin "Xəbərləri", Naxçıvan Müəllimlər İnstitutunun "Xəbərləri" və habelə Bakı şəhərində nəşr olunan "İqtisadi və siyasi elmlər" elmi-analitik və praktiki jurnallarının redaksiya heyətinin üzvüdür.

Ümumiyyətlə, Nazim müəllimlə uzun müddətdir davam edən tanışlığımız dövründə o, bizim yaddaşımıza şərəfli həyat yolu keçmiş səmimi insan, sabit mövqeli sədaqətli dost, gözəl ailə başçısı, tədqiqatçı alim və istedadlı müəllim kimi həkk olunmuşdur. Elə insanlar var ki, onların həyatı, fəaliyyəti elinə, xalqına, vətəninə həsr olunur. Müdriklər demişkən, "xalq üçün, vətən üçün yaşanan ömür əsl insan ömrüdür". Belə insanların ömrü çətin, mənalı və şərəfli olur, başı həmişə el içində uca olur. Onda öz xoşbəxtliyini, səadətini, varlığını vətənə, xalqa ləyaqətlə xidmətdə görür. Belə insanlar öz xalqının, millətinin mənəvi siması - genefondudur desək səhv etmərik. Tam məsuliyyət və qürurla deyə bilərik ki, belə insanlardan biri də istedadlı alim, sözün həqiqi mənasında gözəl insan, iqtisad elmləri doktoru, professor Nazim Hidayət oğlu Əhmədovdur.

Respublikanın ictimai həyatında fəal iştirak edən Nazim Əhmədov 16 oktyabr 2007-ci ildə Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə respublikamızda təhsilin inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilmişdir. O, 2015-ci ildə "Qızıl qələm" mükafatına layiq görülmüşdür. 2016-cı ildə isə Nazim Əhmədov Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasında keçirilən seçkilərdə səslərin əksəriyyətini qazanaraq Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Nazim Əhmədov həmişə olduğu kimi, bu gün də böyük əzmlə, tükənməz enerji ilə Azərbaycan iqtisad elmini ləyaqətlə təmsil etməyə çalışır.

Biz professor Nazim Əhmədovu yaxın dostları adından keçdiyi çətin, lakin olduqca məzmunlu və şərəfli 70 illik həyat yolu, səmərəli əmək və elmi-pedaqoji fəaliyyətinin 43 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı, ailə səadəti və elmi-pedaqoji fəaliyyətində daha böyük uğurlar arzulayırıq.

**Əli NURİYEV,**
**AMEA-nın müxbir üzvü,**
**əməkdar elm xadimi,**
**iqtisad elmləri doktoru,**
**professor.**
**Bəyalı ATAŞOV,**
**iqtisad elmləri doktoru,**
**professor,**
**əməkdar elm xadimi.**